

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# AybKitab layihəsi və ...XƏYAL RZA

**Onun gəlişi uğurlu oldu. Cavan, enerjisi içində qaynayan Xəyal Rza Azərbaycan Yazıçılar Birliyinin Mətbuat Xidmətinin rəhbəri təyin olundu və az sonra onun təşəbbüsü ilə "AybKitab" layihəsi gerçəkləşdi. Layihədə müxtəlif ədəbi nəsillərin yazarlarının kitablarının nəşri nəzərdə tutulurdu, amma əsas diqqət cavan və istedadlı şair və nasirlərə yönəlmişdi. Təbii ki, indiki nəşriyyat xərclərinin ağırlığı mənən varlı, maddi cəhətdən isə kasıb olan cavan qələm sahiblərinin yaşayış durumunca deyildi. Halbuki, kitablarını bu layihənin rəhbərinə təqdim edənlər o qədər də əziyyət çəkməyəcəkdilər-kitab indiki dövr üçün az-çox məqbul hesab olunan 300-500 tirajda nəşr olunandan sonra Yazıçılar Birliyinin "Natəvan" klubunda təqdimat mərasimi keçirilir, həmin tədbirdə kitab haqqında rəylər, fikirlər söylənilir, amma koridorda həmin kitabın nüsxələri satışa qoyulur, yazıçıların cibinin imkanı daxilində (standart beş manat) satılan kitablar nəşriyyat xərcinin müəyyən qismini ödəyir. Hər halda, yaxşı təşəbbüsdür. İndiyə kimi, bu keçən iki il ərzində AybKitab qırxdan çox kitab çap edib. Bir neçə gün öncə Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda bu münasibətlə yubiley tədbiri keçirildi. Tədbirdə AybKitab ilə "Araz" marketlər şəbəkəsi arasında yeni bir layihəyə dair müqavilə imzalandı. Müqaviləyə əsasən, AybKitabın stendləri "Araz" marketlərdə yerləşdiriləcək. Yəni satış məsələsində bu marketlər şəbəkəsi mühüm rol oynayacaq.**

Öncə qeyd etdim ki, AybKitab layihəsi müxtəlif ədəbi nəsillərin yazarlarını əhatə edir. Yaşlı nəslin nümayəndələri-Xalq Yazıçıları Anarın, Elçinin və Vaqif Səmədoğlunun, həmçinin Hüseynbala Mirələmovun, Çingiz Əlioğlunun, Vaqif Bəhmənlinin, Nurengiz Günün, Rəşad Məcidin şeir və nəsr kitabları (bu kitabların həcmi kiçikdir) oxuculara çatdırılıb. Bundan əlavə, Yazıçılar Birliyinin Mingəçevir bölməsinin yazarlarının yaradıcılığını əhatə edən iki almanax da işıq üzü görüb. Cavanlardan isə çağdaş poeziyamızın ümidverən yazarları-Emin Pirinin, Könül Həsənqulunun, Ramil Əhmədin, Günel Eyvazlının, Arzu Hüseynin, Gülnar Səmanın şeir kitabları ilə tanış olduq. İş elə gətirib ki, Xəyal Rzanın bu layihəsinin qiyabi də olsa, bir iştirakçısı da mən olmuşam. Çap olunan qırx kitabın tən yarısı haqda mətbuatda məqalələr dərc etdirmişəm və çox çəkməz ki, mənim bu yazılarım da AybKitab tərəfindən bir kitab halında çap olunar.

Xəyal Rzaya bu yolda uğurlar arzulayıram.

Yazımın ikinci bölümündə isə istəyirəm Xəyalın öz şeirlərindən söz açım. Çünki mətbuatda onun şeirləri barədə elə bir yazı gözümə dəyməyib.

**Həsrət-qara rəngdədir.**
**Kədər-boz rəngdə...**
**Ümid-mavi rəng,**
**Nə qəribə ahəng?!**
**Sarı-qəriblikdir...**
**Ağ-xoşbəxtlik...**
**Yaşıl-inamdır,**
**Qalx bir süfrə aç,**
**Şam yandır.**
**Sevginin rəngi-QIRMIZI,**
**darıxma,**
**döyər qapımızı.**

Xəyal Rzanın "Ulduz" jurnalında dərc edilən şeirlərinin bir neçəsi məndə rənglərin təzadlı duyğusunu yaratdı. Böyük şairimiz Rəsul Rzanın "Rənglər" silsiləsini və Səməd Mənsurun "Həpsi rəngdir" məşhur şeirini xatırladım. Ədəbi təsir normal haldır, təqlid deyilsə. Amma Xəyal Rzanın rənglərlə bağlı şeirləri bu ədəbi təsirdən kənardadır, yəni onun rənglərlə bağlı poetik düşüncələri özününküdür. Sevgini Qırmızı rəngdə təsəvvür etmək hər halda, şairin öz təxəyyülündən doğur. Olsun ki, bu sirri-mübhəmdir. "Sarı çiçəkli matəm bayrağı" şeirində isə başqa bir rəng duyğusu ilə qarşılaşırıq. Vaxtilə, hansı bir şairsə sarı çiçəyi matəm bayrağına bənzədib. Və indi o şair dünyadan köçür.



**Budur şairin**
**rəngli həyat hekayəsinin sonu-**
**sarı çiçəkli uşaq paltarı...**
**dalğalanan matəm bayrağı...**
**Bir də**
**Dar quyu,**
**Dibi qaranlıq və nəm...**
**Ağrısız-filansız**
**Bir az yatmaq istəyən şairi**
**Əbədi yatmağa göndərdik bu dəm...**
**Yandırın qəm içindəki**
**İşıqları...**
**Qaldırın bayraqları**
**Şair...öldü!**

Nəhayət, "Rənglər" şeiri. Bu şeiri Xəyal Rzanın ən gözəl şeiri hesab etmək olar. Assosiativ düşüncənin məhsulu olan "Rənglər"də əvvəlki "Qırmızı" şeirinin yeni bir çalarda ifadəsidir. Burada "qırmızı-sevgi rəngidir" fikri bir daha təsdiq olunur. Sən demə, sevgidən doğan göz yaşları qırmızı rəngdəymiş. Ümumiyyətlə, Xəyal Rza metaforalarla işləməyi sevir. O, mücərrəd məfhumlara canlılıq, insana məxsus sifətlər, xasiyyətlər bəxş etməyi sevir.

**Gözümdə bir arzu susur**
**Yanıb-alışmaq istəmir.**
**Dilimdə bir sevgi susur**
**Dinib-danışmaq istəmir...**
**Əlimdə bir salam susur**
**Küsüb...barışmaq istəmir...**
**Ürəyimdə ümid sönür...**
**Susub! Qarışmaq istəmir.**

"Tərsinə" şeirinə başqa bir ahəng hopur. Həyatın, gerçəkliyin xaotik, qarmaqarışıq rəngləri hopur bu şeirə. Xəyal yaşadığımız mühitdə, cəmiyyətdə hər şeyin düz, halal olduğu qənaətində deyil. Və elə biz də o fikirdəyik. Cəmiyyətdə, mühitdə neqativ və mənfi hallar, "tərsinə yollar, ümidlər, arzular, dərdlər" batman-batmandır. Bu zamanın doğurduğu tərslikləri aşıb-keçmək hünər istəyir. Çünki "Nəfslər format olunub, beyinlərə modern paxıllıq virusları yüklənib... gözlər intihar edib, yollara dikilmir daha... Ürək bərk-bərk döyünmür".

**Şəhərin xarakteri dəyişib,**
**Yayı yay deyil, qışı qış.**
**İndi adam olmaq da çətindir**
**Bu yayda, bu qışda.**
**Dünya yumurtası tərs dönmüş**
**Toyuğa bənzəyir.**
**Adam adamı çıraqla gəzir**
**Günün günorta çağında.**
**Hər şey bambaşqa...**
**Hər şey tərsinə...**

Xəyalın şeirlərində həsrət, intizar motivləri daha çox diqqəti cəlb edir. Amma bu həsrət yaşanılan hisslərin bəlirtiləridir. Öncə dediyim metafora ustalığı onun bu həsrət şeirlərinə poetik naxışlar vurur. "Qoy başını kədərin Dizləri üstə"- bu iki misradan doğan həsrət duyğusunu necə də poetikləşdirə bilib. Deməli, Kədər bir obraz kimi bu şeirin "qəhrəmanına" çevrilir. "Bir az mərhəmət istə, bir az sevgi" - sonra: "Çalış söz verme ona, çalış dərdini açmasın, de ki, yolunu ölçsün, boyunu ölçməsin". Kədərlə, yəni artıq canlılaşmış, insaniləşmiş bu hisslə metafora dilində danışmaq gənc şairin poetik axtarışlarından xəbər verir. Bu kədərin son anda ölümlə də ilişgisi var, məgər bütün ölümlərin özəyində hansısa bir kədər yaşanmamışmı?

Və nəhayət, "Ora Bakı-bura Təbriz" şeiri. Təbii ki, bu şeir həsrətin ən yanğılı məqamını-o taylı-bu taylı Azərbaycanın mənəvi birlik, vahid Vətən arzusunu ifadə edir.

**Söylə, çoxmu olacaqsan,**
**Yara Təbriz, yara Təbriz?!**
**İnan, bir gün görəcəyəm**
**Ora Bakı, bura Təbriz!**

**Mən Xəyal Rzaya-bu cavan şairə bir arzumu çatdırmaq istəyirəm. Xəyal Rza az yazır, buna etiraz edə bilməm. Amma axtarışlarını davam etdirsin - sözlərin şeirə, şeirlərin poeziyaya çevrilməyi, həyatı, gerçəkliyi təkcə qəm pəncərəsindən deyil, işıqdan da, sevincdən də seyr etməyi arzularam...**